# KƏNAR DÜNYALARIN ÇAĞIRILMAMIŞ QONAQLARI

**Ramazan Qafarlı**



UNO-ların gerçəkliyinə hamı inanmasa da, maraqlı tarixçəsi vardır.

**ABŞ-nın Milli Elmi Fondunun 1986-cı ildəki məlumatına əsasən, Amerika əhalisinin 43 faizi Uçan Naməlum Obyektlərin (UNO) kənar mədəniyyətlərdən gəldiyinə inanır. Başqa planetlərin (dünyaların) yerlə əlaqə yaratmaq təşəbbüsləri uçan boşqablar haqqındakı faktlar və təsəvvürlərdə də özünə geniş yer alır.**

UNO və uçan boşqablara saysız-hesabsız kitab, qəzet və jurnal məqalələri, televiziya verlişləri həsr edilib. Hətta bu sirli obyektləri ciddi elmi dəlillərlə şərh etməyə çalışırlar. Tədqiqatçılar belə bir fakta söykənirlər ki, başqa dünyaların çağırılmamış qonaqları qeyri-adi şəkildə peyda olaraq bəzi yer sakinləri ilə əlaqə yaratmaq istəyirlər.

Bu gün yer kürəsinin qaynar nöqtələrində baş verən dəhşətli terror aktları, qanlı müharibələr azmış kimi başqa planetlərin sakinlərinin hücum təhlükəsi də bəşər oğlunu bərk təşvişə salır. Doğrudur, həmin hadisədən biznes üçün faydalananlar UNO-ya xüsusi jurnal, oyuncaq, elektron oyun, kino-serial həsr edir, hətta uçan boşqaba oxşar ərzaqlar da düzəldirlər. Naməlum göy obyektlərinin gerçəkliyinə, başqa dünyalarla bağlılığına hamı inanmasa da, maraqlı meydanagəlmə tarixçəsi vardır.

## UNO-lar YER KÜRƏSİNƏ MÜHARİBƏ ELAN ETMƏYƏ HAZIRLAŞIRMI?



Uçan boşqabların Yer kürəsinə hücumu gözlənilirmi?

UNO və uçan boşqabların pilotları ilə görüş haqqındakı məlumatlar əlli ildən çoxdur ki, dünyanı gəzib dolaşır. Bu terminlərin dəqiq doğum tarixi də bəllidir. 24 iyun 1947-ci ildə, günorta üstü, saat 3-də təyyarə sürücüsü Kennet Arnold meşədə baş verən yanğını söndürdü. Yanğınsöndürmə avadanlıqlarının satıcısı da onun yanında əyləşmişdi. Onlar kiçik təyyarədə Vaşinqton ştatının Reynir dağının ətrafı ilə uçurdular. Qəflətənqarşılarında qəribə mənzərə yarandı: atmosferdə eyni bərabərlikdə bir-birinin ardınca düzülmüş on disk göründü. Arnold tez Yakima hava limanının qulluqçularına məlumat verdi: "10 000 fut yüksəklikdə 1200 mil sürətlə naməlum obyektlər uçur".

Ona o qədər də inanmadılar. Lakin radio ötürücüsünün dalğasını təsadüfən tutanlar məlumatı lazımi yerlərə çatdırdılar.

Pendltona çatıb təyyarədən yerə enən kimi yerli jurnalistlər Arnoldu dövrəyə aldılar. Pilot söhbətində göyün ənginliyində rastlaşdığı disklərin uçuşunu su üzərində sürətlə diyirlənən boşqaba bənzətdi. "Boşqab" obrazı qəzetçilərə məsələni şişirmək üçün çox uyğun gəldi. Arnoldun macərası qələm əhlinə xoş təsir bağışladı. İyunun 26-da "Yakima Morninq Herald" qəzetində iri başlıqlı məqalə çıxdı, sirli obyekt "boşqabəbənzər" disk adlandırıldı. Sonra başqa bölgələrdən də məlumatlar gəlməyə başladı: qəzetçilər müxtəlif yerlərdə də oxşar hadisələrin baş verdiyindən geniş danışdılar. "Herald"ın 27 iyun buraxılışında "uçan disk", "göy tələsi", 29 iyunda isə ilk dəfə qəzetin baş səhifəsində "uçan boşqab" adı işləndi.

Arnoldun müəmmalı söhbəti 1947-ci ildə uçan boşqablarla bağlı 850 oxşar hadisənin mətbuat səhifələrinə sızmasına şərait yaratdı. Bu hal müxtəlif şəkildə yozuldu: əksəriyyət qənaətə gəldi ki, bu, adi astronomik fenomenin atmosfer hadisəsi kimi düzgün dərk edilməmişdən başqa bir şey deyil. Lakin, ►

nədənsə, məsələyə ordu və Federal Tədqiqat Bürosunun (FTB) əməkdaşları əhəmiyyət vermədilər. Əhali isə hər təzə xəbəri böyük maraq və təlaşla qarşılayırdı. Müxtəlif dairələrdə çoxsaylı mistifikasiyalar irəli sürülürdü. Nəhayət, gəzib-dolaşan söz-söhbətlər bir faciəli hadisə ilə daha mürəkkəb şəkil aldı. 1948-ci ilin 7 yanvarında Milli Hava Müdafiəsinin kapitanı Tomas Mentell gümüşü rəngli, konusvari uçan predmeti ötməyə çalışanda öz qırıcı təyyarəsi "Mustanq" F-51-i qəzaya uğratdı. Bu naməlum predmet Kentukki ştatının Luisvill şəhəri üzərindən keçirdi. İlk dəfə məhz bu hadisədə "uçan boşqab"ın naməlum pilotu düşmən mövqeyini biruzə verdi.

Hamıya bir şey bəlli idi: kapitan Mentell göyün ənginliyindəki "Ckayhuk" zonduna yaxınlaşarkən həlak olub. Atmosferin həddindən çox yuxarı qatına qalxdığından təyyarənin kabinəsində kislorod çatışmamış, pilot huşunu itirdiyindən "Mustanq" daha da zirvəyə doğru istiqamət almışdır. Yüksəklik zondları 1948-ci ildə gizli hərbi qurğular sayılırdı, ona görə də faciənin əsl səbəbi barədə mətbuatda geniş bəhs edilməyə imkan yaradılmadı.

Sirli uçan obyektlər barədə qəribə məlumatlar insanlar arasında yayılmaqda davam edirdi. 1950-ci ildə Gellan fondunun sorğusu göstərdi ki, əksər amerikalılar uçan boşqab fenomeninə bələddir. Lakin tapmaca-disklərin başqa planetlərlə əlaqəsinin olması çoxlarının ağlına yerləşmirdi. Hamıda bir qənaət formalaşmışdı: göydəki müəmmalı obyektlər hərbçilərin gizli əməllərinin nəticələridir. Lakin "Həqiqət" qəzetində həmin il mayor Keyxonun qorxu yayan "Uçan boşqablar mövcuddur" məqaləsi çap edilir. Dəniz piyada korpusunun ehtiyatda olan zabiti insanları inandırmağa çalışır ki, "Uçan boşqablar" başqa qalaktikalardan gələn naməlum kosmik gəmilərdir, "inoplanetyanlar" tərəfindən idarə olunur. Onlar 200 ildən çoxdur ki, Yer kürəsini izləyir və bizə müharibə elan etməyə hazırlaşırlar".







## "İNOPLANETYANLAR"LA ƏLAQƏ QURANLAR CƏSUSLUQ MİSSİYASINI BOYUNLARINA GÖTÜRÜRLƏRMİ?..



Corc Adamsk 1953-cü ildə hamı¬nı heyrətləndirən bir məlumat yaydı. O, uçan boşqabın heyəti ilə Günəş sistemini bir neçə dəfə dolaşıbmış.

İlk gümüşü disklərin meydana gəlməsinə bir qədər ciddi yanaşanlar belə onun söylədiklərini "lunatiklər"in sərsəmləməsi saydılar. Əksər konservativ tədqiqatçılar qrupu kənar varlıqlarla yer əhalisinin hər hansı şəkildə əlaqəsini qəti inkar edirdilər. Beləcə 1970-ci ilə kimi "inoplanetyanlar"la qəribə görüşlərindən söz salanları gülünclə qarşıladılar. Lakin, tez-tez olmasa da, belə adamlar peyda olub mətbuata informasiya ötürməkdə davam edirdilər. Hələ 1949-cu ildə mərhum astronom doktor Con Allen Haynek Hərbi Hava Qüvvələrinin əməkdaşlarına "inoplanetyanlar" probleminə aid məsləhətlər verəndə "üçüncü növlə yaxın əlaqə"dən danışmışdı. O, məşhur "UNO təcrübəsi" kitabına da bu barədə xüsusi fəsil salmışdı. Getdikcə kənar dünyaların çağırılmamış qonaqları ilə görüşdüyünü əsaslandırmağa çalışanların sayı artdı və hətta mətbuata "yer sakinlərinin qaçırılması" barədə də əhvalatlar sızmağa başladı. 1961-ci ildə Berni və Betti Hill olduqca qəribə hadisə ilə üzləşdi.

Hər şey ərlə arvadın Kanadadan Nyu-Qempşir ştatının Portsmut şəhərinə, Konnektikutdakı evlərinə qayıdarkən baş verdi. Maşınları sürətlə River-Vellidən keçirdi. Axşam saat 10.30 radələri olardı. Qəflətən Betti Hill göydə qəribə işıq gördü. Onun sözlərinə görə, ay lap yerə yaxınlaşıb qeyri-adi şəkildə parıltı verirdi. Ondan aşağıda və solda iri ulduzlar sayrışırdı. Və gözqamaşdırıcı şüalar ətrafı günəş kimi işıqlandırırdı. Bundan sonra onların başına elə qeyri-adi və qəribə hadisələr gəlir ki, hər ikisi yaddaşını tamam itirir. Ərlə arvadın xeyli vaxt dilləri də tutulur. Onlar yalnız iki ildən sonra Bostonlu psixiatr Saymonun yardımı ilə sağalırlar. Hipnoz altında olarkən başlarına bir-birindən ziddiyyətli əhvalatların gəldiyini danışırlar. Ərlə arvad qəti şəkildə əmin idi ki, həmin gecə kimsəsiz magistralda "inoplanetyanlar"ın hücumuna məruz qalaraq qaçırılıblar. Naməlum gəminin kobinələrinin birində tibbi müayinədən keçiriliblər. Lakin kənar dünyanın nümayəndələrindən danışanda onlar canlı insana bənzər məxluqdan, yaxud digər tanış obrazdan söz açmır, indiyədək yer əhlinin rastlaşdığı canlılardan tamamilə fərqlənən iki ağıllı varlığın əsiri olduqlarını vurğulayırlar. Bu eksperimental görüşdə hansı məqsədləsə onların bədən üzvlərinin hərəkətini öyrənmək istəyirmişlər. Betti nəhəng iynəni başı-▶



"Qorxma, bu, hamiləliyi yoxlamaq üçün testdir..."

nın üstündə görəndə qorxudan titrəyibmiş. Naməlum gəlmə iynəni göbəyinə batıranda qadın ağrıdan bağırırmış. Qonaq deyirmiş ki, "qorxma, bu, hamiləliyi yoxlamaq üçün testdir". Gəlmələrdən biri əməliyyat otağına daxil olanda Betti baxır ki, ərinin çənəsi də yad planetlilərin marağına səbəb olub. O, Bernin protez dişlərini əllərində tutub heyranlıqla seyr edirdi. Ağ süni dişləri dartıb çıxartmaqdan ötrü xeyli əlləşirlər. Çox komik vəziyyət yaranır. Qorxusunu içinə çəkən Bettinin də dodaqları qaçır. Bu vəziyyət onlarla qadın arasında isti münasibət yaradır. Betti gəlmələrə başa salır ki, "İnsanlar dişlərini qocalanda çürüdüyünə görə itirirlər, bu səbəbdən də ağızlarına protez dişlər taxırlar". İnsanlara aid elementar məsələləri gəlmələr dərk etmirdilər. Onlar bilmirdilər ki, yaşa dolmaq, qocalıb əldən düşmək, ölmək nə deməkdir. Zaman hissləri də yox idi, ay, il, əsr haqqında təsəvvürləri qəribə idi. Ömrün çağlarının dəyişməsini onlara başa salmaq mümkün deyildi.

Betti özündə cəsarət tapıb deyir:

-"Sizin yer əhli olmadığınız aydındır. Hardan gəlmisiniz?"

Onlar xüsusi xətlər çəkilmiş "xəritə"də öz ölkələrindən söz salırlar.

Betti soruşur:

-"Bu xəritədə sizin ulduz sistemi varmı?"

Onlar gülürlər:

-"Bilmirik".

Belə məlum olur ki, gəlmələrin gəmisini onlar deyil, kənardan -naməlum qalaktikalarının başbi-lənləri idarə edirlər. Sonralar Betti yaddaşı əsasında UNO-da gördüyü xəritənin şəklini də çəkdi. Burada günəş sistemindən başqa digər iki böyük ulduzun dövretməsi əks olunurdu.

1961-ci ilin 18 aprelində 60 yaşlı Con Simentonun başına lətifəyə oxşar bir hadisə gəlir. Viskonsidə yaşayan fermer bir də görür ki, parıltılı uçan boşqab yerə endi. Bu hadisə onun ev quşları saxlanan həyətində, səhər saat 11-də baş vermişdi. Bortun lyuku açılır, üç kiçik adam gəmidən çölə çıxır. Conun sözlərinə görə, onlar italiyalılara oxşayırdılar. Jestlərlə ona başa salırlar ki, su lazımdır. Eyni zamanda gələnlərin biri od qalayıb dəmirəoxşar torun üstündə nəsə qızardır. Con bir qab su gətirib onlara verir, əvəzində hədiyyə alır. "Çağırılmamış qonaqlar" ziyan vurmadan gəmiyə minib göyə qalxırlar, surətlə cənub istiqamətinə uçurlar.

Maraqlıdır ki, "gəlmələr"in ev sahibinə hədiyyəsi Yer sakinlərinə bəlli olmayan hansısa dəmir parçası, yaxud yüksək texnologiya nümunəsi deyildi. "İnoplanetyanlar" Cona həyətdə bişirdikləri üç balaca qarabaşaq oladisi vermişdilər. Con özü də bilmir, necə olursa, acgöz adamlar kimi tələm-tələsik oladilərdən birini bədənə ötürür, karton tamı verdiyindən üz-gözünü turşudur. O, nə hadisə baş verdiyini tam dərk etməmiş ABŞ-ın Hava Hücumu Qüvvələrinin əhatəsinə düşür. Oladiləri zorla tutub qocanın əllərindən alırlar. Tezliklə Sağlamlıq Departamentinin əməkdaşları hadisə yerinə çağırıldı. Oladilərin tərkibi yoxlanılır. Anlamaq istəyirlər, görsünlər, kənar planetlilərin bişirdikləri nadir yeməyin insan orqanizminə ziyanı yoxdur ki... Nəticə hamını məyus edir. Oladinin tərkibi belə idi: hidrogensizləşdirilmiş yağ, kraxmal, qarabaşaq (qreçka), paxla (soya) və buğda kəsiyi. "Gəlmələr" ən adi yer oladisi bişirmişdilər.




## SON 20 İLDƏ YERƏ ENƏN UNO-LARIN SAYI 3 MİLYONDAN ÇOXDUR

Conn Fulerin 1966-cı ildə işıq üzü görən "Yarımçıq qalmış səyahət: UNO ilə qalmaqal" kitabında "inoplanetyanlar"la əlaqələrdən ilk dəfə ətraflıdanışır.

Nyu-Yorklu aktyor və uçan boşqabların araşdırıcısı Badd Hopkins on bir ildən sonra "Daxildə müdaxilə" adlı elmi-populyar əsər meydana gətirir. O da "inoplanetyanlar" tərəfindən qaçırılan qurbanlar barədə topladığı maraqlı əhvalatlara yer ayırır. Hər iki nəşr geniş hay-küyə səbəb olur.

Los-Andjeles 1987-ci ildə böyük bir təlatüm yaşayır. Ulduzabənzər nəhəng "UNO" bir saat ərzində Sakit okeanın üzərində göydən asılı vəziyyətdə qalır. O, bütün planetlərdən parlaq idi. Bu obyektə Qrif-fitck rəsədxanasının damından 12 düyümlü seyssov teleskopu ilə tamaşa edən astroloq görür ki, bu, hava şarına oxşar yüksək meteoroloji zonddur, günəş şüalarını əks etdirən ölçmə alətləri ilə ulduzlardan parlaq işıq saçır. Qurğu bir müddət UNO rolunu çox məharətlə icra edir və bir neçə milyonluq şəhərin əhalisinə "inoplanetyanların hücumu" qorxusunu yaşadır.

Doktor Jan Volle UNO-nun reallığına inansa da, başqa planetdən gələn gəmi nəzəriyyəsinin həmin fenomeni açıqlamadığını bildirir. O, ən adi hesablama aparmaqla izah edir ki, UNO-nun meydana gəlməsi hadisələri ilə kosmik gəmilərin asanlıqla, tək-tük adamın gözünə görünüb yerə enməsi ideyası arasında kəskin zidiyyət mövcuddur.

Şübhəsiz, UNO-larla bağlı danışılan bütün əhvalatları bir yerə cəmləyib dəqiq hesablama aparmaq mümkün deyil. Ona görə də Valle qərara alır ki, yalnız birinci növ əlaqələrin cədvəlini tərtib etsin. UNO-ların yerə enmə və əlaqəyaranma vaxtına nəzər salanda diqqətini bir uyğunluq özünə çəkir: uçan boşqabların hamısı qaranlıq düşəndən sonra (ən tezi gecə 11-in yarısında) enməyə başlayır, bu iş səhər hava işıqlaşana qədər davam edir. Onun dioqramına əsasən, ən çox enmə və əlaqə yaratma gecə saat 1-2 arasına düşür. Jan onların sayına nəzər salanda qəribə nəticə ilə rastlaşır: demə, son iki on il ərzində çağırılmamış yad planetli qonaqlar dünyamıza 3 milyon dəfədən çox təşrif gətirmişlər. Bu ağılasığmaz nəticə idi. Axı hansı səbəb onları bu qədər çox sayda Yer qitəsinə enməyə vadar edə bilərdi?..

Bütün bunlar şubhəli görünsə də, başqa planetdən gələnlərə inam günü-gündən artır və mifi, nağılı xatırladan əhvalatlarda gerçəkliklə bağlanan çox nazik tellər aşkarlanır. Sirli dünyamızda kənar planetlilərin qəribəliklərini öyrənmək təşəbbüsləri bir həqiqəti meydana çıxardır: insan möcüzəyə meylli olsa da, həmişə onun içərisindən gerçəkliyə doğru cığır açmaq istəyir.

## UNO-lar AZƏRBAYCANDA

Yazı çapa hazırlananda bir neçə maraqlı məlumat eşitdik. Demə, UNO-larla rastlaşan, kənar planetli çağırılmamış qonaqlarla əlaqəyə girən, qeyri-adi şəkildə bir neçə saatlığa onların gəmisinə aparılan adamlar hal-hazırda Azərbaycanın bir çox bölgələrində gəzib-dolaşmaqdadırlar. Başlarına gələn möcüzəli hadisələri dost-tanışlarına danışmaqdan yorulsalar da, dünya onlardan xəbərsizdi. Hətta iki Mingəçevir sakini «inoplanetyan»larla görüşdən sonra özlərində qeyri-adi istedad aşkarlayıb. Onlar hal-hazırda əllərinin enerjisi ilə bir çox xəstəlikləri insan bədənindən kənarlaşdırmağı bacarırlar. Füzulinin bir kəndində isə uçan boşqabın endiyi yerdə qədim, qəribə tikililərin qalıqları üzə çıxıb. Əlbəttə, biz də bunlara inanmaq istəyirik. Ona görə də əməkdaşlarımızı həmin bölgələrə göndərmişik. Eşitdiklərimizi təsdiqləyən dəlillər əldə etsək, gələn sayımızda bu mövzu ətrafında söhbətimizi davam etdirəcəyik. ■